

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 186 (21.596)

5 oktyabr 2016-cı il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 4-də Bakıda, Rəşid Behbudov küçəsində dünya şöhrətli müğənni, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovun abidəsinin açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyevə məlumat verilib ki, dünya şöhrətli müğənninin adını daşıyan Dövlət Mahnı Teatrının qarşısında ucaldılan heykəlin müəllifi Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, professor Fuad Salayevdir. Heykəlin hündürlüyü 3, pyedestalla birlikdə isə 4,5 metrdir.

Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva və məşhur müğənninin ailə üzvləri ilə birlikdə heykəlin üzərindəki örtüyü götürüb.

Dövlətimizin başçısı abidənin önünə gül qoyub və çıxış edib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Rəşid Behbudovun ailə üzvləri, həmçinin mədəniyyət və incəsənət xadimləri ilə söhbət ediblər.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva dünya şöhrətli müğənninin ailə üzvləri və mərasimə gələn qonaqlarla xatirə şəkilləri çəkdiriblər.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 4 oktyabr tarixli sərəncamları ilə Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə bir qrup təhsil işçisi təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də vardır.

**Bağırov Rauf Şirəli oğlu**
**Cabbarov Gündüz Əbülfəz oğlu**
**Hacızadə Gülcahan Abdulla qızı**
**Şahbazova Gözəl Qadir qızı**

"Tərəqqi" medalı ilə,

**Abdullayev İlqar Yusif oğlu**
**Dadaşova Güllübəyim Bağır qızı**
**Hacıyeva Nurtəkin Etibar qızı**
**Məmmədova Azadə Məmməd qızı**

"Əməkdar müəllim" fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvanda toxumçuluq təsərrüfatlarının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələr barədə səyyari müşavirə keçirilmişdir

Oktyabrın 4-də "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində muxtar respublikada toxumçuluq təsərrüfatlarının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələr barədə səyyari müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada torpaq tişdirməkdir. Muxtar respublikanın blokada şəraitində yaşaması və əkinəyararlı torpaqların az olması taxıl və bostan-tərəvəz bitkilərinin əkinində mütərəqqi metodların tətbiqini, məhsuldarlığın artırılmasını və daxili tələbatın ödənilməsini zəruri edir. Torpaqlardan səmərəli istifadə olunmasında isə meliorasiya və irriqasiya işlərinin görülməsi vacib məsələdir. Muxtar respublikada bu məsələ diq- kənd təsərrüfatının inkişafından, bu sahədə yerli istehsalın həcminin artırılmasından asılıdır. Naxçıvan Muxtar Respublikasının uzun müddətdir blokada şəraitində yaşaması yerli istehsalın həcminin artırılmasını zəruri edir. Artıq muxtar respublikada ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 90 faizə yaxındır. Hazırda ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının payının artı- ilə mütəmadi görüşlər keçirilməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında aid təşkilatların kollektivlərinə uğurlar arzulamışdır.

Sonra muxtar respublikanın toxumçuluq təsərrüfatlarında yetişdirilən məhsuldar toxum sortlarına baxış olmuşdur.

Məlumat verilmişdir ki, hazırda muxtar respublikada ümumi əkin sahəsi 910 hektar





mülkiyyətçiləri müasir kənd təsərrüfatı texnikaları, mineral gübrələr və suvarma suyu ilə təmin olunur, kənd təsərrüfatının inkişafı üçün kreditlər verilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, əksər kənd təsərrüfatı məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir. Əkinçiliyin inkişafında başlıca amillərdən biri məhsuldar toxum sortlarının yaradılmasıdır. Bu istiqamətdə də muxtar respublikada mühüm tədbirlər həyata keçirilir. Hazırda muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlar keyfiyyətli toxum sortları ilə təmin olunur. Təklif olunan sortların əkin dövriyyəsinə daxil edilməsi məhsuldarlığın yüksəlməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Muxtar respublika kənd təsərrüfatı rayonudur. Ona görə də bu sahədə işlər düzgün qurulmalı, mütərəqqi metodlardan istifadə olunmalı, əkin sahələrində aqrotexniki tədbirlər həyata keçirilməli, maarifləndirmə işi aparılmalıdır. Muxtar respublikada aid dövlət qurumlarının və təcrübə-sınaq sahələrinin fəaliyyət göstərməsi, mütəxəssislərin olması bu tədbirlərin həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri demişdir: Torpağın əkilməsi əsas şərt deyil. Əsas məsələ torpaqdan səmərəli istifadə və bol məhsul yetişdirməkdir. qətdə saxlanılmış, ötən il Babək və Culfa rayonlarının 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi, o cümlədən "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün ayrılmış 2 min hektar torpaq sahəsinin 400 hektarında qapalı suvarma şəbəkəsi qurulmuş, bu il Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin 600 hektara yaxın torpaq sahəsini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilmişdir. Hazırda Kəngərli rayonunun Böyükdüz kəndində 120 hektarda qapalı suvarma şəbəkəsinin qurulması davam etdirilir.

Qeyd olunmuşdur ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən tədbirlərdən biri də aqrolizinq xidmətinin təşkilidir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin maddi-texniki bazası gücləndirilir, hər il yeni kənd təsərrüfatı texnikaları, muxtar respublikanın iqlim və torpaq xüsusiyyətlərinə uyğun gübrələr alınıb gətirilərək torpaq mülkiyyətçilərinə verilir. Bundan başqa, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin və rayon bazalarının nəzdində Kənd Təsərrüfatı Nazirliyinin dərman satışı yerləri yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Müasir dövrdə hər bir ölkənin inkişafı, ilk növbədə, ərzaq təhlükəsizliyinin təmin olunması ilə ölçülür. Ərzaq təhlükəsizliyinin təmin olunması isə rılması qarşıda duran əsas vəzifədir. Ona görə də aid təşkilatlar bu məsələyə diqqəti artırmalı, əkinçilikdə müasir aqrotexniki qaydalar tətbiq edilməli və bol kənd təsərrüfatı məhsulları istehsal olunmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında aid təşkilatlara tapşırıqlar verərək demişdir ki, torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri davam etdirilməli, mütərəqqi suvarma metodları tətbiq olunmalı, əkin mədəniyyəti formalaşdırılmalıdır. Taxıl və bostan-tərəvəz bitkiləri ilə yanaşı, dənli-paxlalı bitkilərin əkini də genişləndirilməli, daxili tələbat tamamilə yerli istehsal hesabına ödənilməlidir. Bu gün muxtar respublikada fəaliyyət göstərən toxumçuluq təsərrüfatları əkin sahələri və müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunmuşdur. Hazırda "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleksin tikintisi aparılır. Toxumçuluq təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalı, Kənd Təsərrüfatı Nazirliyinin yerli təcrübə-sınaq stansiyalarında hər bir rayonun iqliminə uyğun kənd təsərrüfatı bitkiləri seçilib yetişdirilməli və torpaq mülkiyyətçilərinə paylanılmalıdır. "Araz" Elm İstehsalat Birliyi elmi baza kimi fəaliyyətini genişləndirməli, təcrübələr aparılmalı, torpaq mülkiyyətçiləri olan 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Təsərrüfatlarda yetişdirilən toxumluq buğdalar laboratoriyada analiz edildikdən sonra onlara yararlılıq barədə sertifikatlar verilir. Bu il təsərrüfatlarda 1871 ton məhsul istehsal olunmuş, bu günə qədər 837 ton toxum təmizlənərək dərmanlanmışdır. Hazırda bu iş davam etdirilir.

Muxtar respublikanın taxıl əkini sahələrində toxumçuluq təsərrüfatlarında yetişdirilən məhsuldar "Bezostaya", "Qobustan", "Quality", "Güvən", "Dağ-daş", "Ceyhan-99", "Sönməz", "Gilavar" sortlarının əkilməsi nəzərdə tutulmuşdur. Bu toxum sortlarının əkin dövriyyəsinə daxil edilməsi orta məhsuldarlığı artıracaqdır. Taxıl sahələrində alaq otlarına və gəmiricilərə qarşı mübarizə məqsədilə də lazımi qədər herbisid və sinkfosfid preparatı tədarük olunmuş, torpaq mülkiyyətçilərinə maarifləndirici kitabçalar paylanmışdır.

Toxumçuluq təsərrüfatlarında yetişdirilən "Zaqatala-420" qarğıdalı sortu, "Qaraca-85" noxud sortu, sarımsaq, soğan, kartof və şənbəllə toxumları da yüksək məhsuldarlığa malikdir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, artıq muxtar respublikada qarğıdalı, soğan, sarımsaq və kartofa olan tələbat yerli istehsal hesabına ödənilir.

*Ardı 2-ci səhifədə*

# Yarma istehsalı daxili tələbatı ödəyir



Oktyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan yarma istehsalı sahəsinə də baxmışdır.

Məlumat verilmişdir ki, istehsal sahəsi Sahibkarlığa Kömək Fondundan ayrılan vəsait və müəssisənin daxili imkanları hesabına yaradılmışdır. İstehsal sahəsində quraşdırılan müasir avadanlıqlar keyfiyyətli məhsul istehsalına imkan verir. 576 kvadratmetr sahəyə malik olan müəssisədə 3 çeşiddə – 800 qram və 3 kiloqramlıq polietilen paketdə, 25 kiloqramlıq kisədə yarma və bulqur istehsal olunur. Müəssisənin istehsal gücü saatda 600 kiloqramdır. İndiyə kimi bu məhsula olan tələbat tamamilə idxal hesabına ödənilirdi. Lakin hazırda müəssisə daxili tələbatı tam ödəyir. Gələcəkdə məhsulun ixrac olunması da nəzərdə tutulur.

Sonra Ali Məclisin Sədri "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin qüvvəli yem və un istehsalı sahəsinə də baxmışdır.

Bildirilmişdir ki, yaradılan şərait quşçuluq və heyvandarlıq təsərrüfatlarının qüvvəli yemə olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Xammal kimi yerli məhsullardan istifadə olunur. Un istehsalı sahəsində əhalinin tələbatına uyğun olaraq 4 çeşiddə – 1, 2 və 5 kiloqramlıq paketlərdə, eləcə də 50 kiloqramlıq kisələrdə un istehsal olunur.

Ali Məclisin Sədri istehsal sahələrində keyfiyyətə diqqət yetirilməsi, əhalinin tələbatının nəzərə alınması və daxili bazarın qorunması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Bəsləsən atlaz olar tut yarpağından

## *Bu gün muxtar respublikada baramaçılığın əvvəlki şöhrətini qaytarmaq üçün hər cür imkanlar var*

***Baramaçılıq qədim tarixə malik gəlirli təsərrüfat sahələrindən biridir. Arxeoloji qazıntılar bu sahənin eramızdan 5 min il əvvəl mövcud olduğunu deməyə əsas verir. Baramaqurdu əsasında ipəkçilik qədim zamanlardan Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, İran, Türkiyə, Orta Asiya və Cənubi Qafqaz ölkələrində inkişaf edib. VII əsrdən isə ipəkçilik Azərbaycanda inkişaf etməyə başlayıb. Buna ölkəmizin əlverişli iqlim şəraiti, xüsusən bol Günəş işığı, tarixi əmək vərdişləri imkan verirdi.***

XI-XII əsrlərdə Azərbaycanın müxtəlif bölgələrində istehsal edilən ipək kəmiyyət və keyfiyyətinə görə bütün dünyada şöhrət qazanmışdı. XIX əsrdə Rusiyada ipək istehsalı müəssisələri, əsasən, Azərbaycandan alınan barama xammalı hesabına işləyirdi. Sovetlər İttifaqı dövründə ölkəmizdə istehsal olunan ipək parça təkrar emal üçün SSRİ-nin ipək parça kombinatlarına göndərilirdi. Bu kombinatların sayı 250-ni ötmüşdü. Ötən əsrin sonlarında baş verən məlum hadisələr iqtisadi cəhətdən xeyli sərfəli olan bu təsərrüfat sahəsini də tənəzzülə uğratdı. Min hektarlarla tutluq sahələri sıradan çıxdı, istehsal sahələrindəki avadanlıqlar dağıdıldı. İnsanlar daimi iş yerlərini itirdilər.

İpəyi, adətən, qızıla bərabər tuturdular. Vaxt olub, pul əvəzinə işlənib. Tərəzinin bir gözünə ipəyi qoyurdular, birinə qızılı. Tarixin yaddaşında belə bir fakt qalır: monqollar ilk dəfə Azərbaycana gələndə onları başdan etmək üçün çoxlu daş-qaş versələr də, əl çəkməyiblər, yalnız xeyli ipək alandan sonra çıxıb gediblər.

Xeyiri, bərəkəti bilindikcə barama əhalinin gözündə daha da ucalırdı: "Cənnət qurdları", yaxud "qızıl qurdlar" kimi tanınan barama qurdlarına qayğı artırdı. Barama bəsləmən otaqlar yad baxışdan, bədnəzərdən pünhan saxlanar, haram əlli, yalan dilli, adı bədnam adamlar ora yaxına buraxılmazdı. Baramadərmə günü əsl toybayrama çevrilərdi...

Bugünkü ümumdünya iqtisadi böhranı fonunda ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər bu qədim və gəlirli təsərrüfat sahəsinin də aktuallığını artırıb.

İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı Azərbaycan üçün ən vacib kənd təsərrüfatı sahələrinin yaxın illərdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayarkən, bu sırada baramaçılığın da strateji məhsul kimi inkişafının vacibliyini qeyd edib, baramaçılığa da strateji sahə kimi xüsusi önəm veriləcəyini diqqətə çatdırıb: ***"Sovet dönəmində Azərbaycanda baramaçılıq çox geniş vüsət almışdı. Amma sonra biz gördük ki, bu sahə demək olar tamamilə dağılıb gedib. Əgər keçən il ancaq bir rayonda – Şəkidə 200 kiloqramdan bir qədər çox barama istehsal edilibsə, bu il 25 rayonda qısa müddətdə 70 ton barama istehsal olunub. Yəni, 45 gün ərzində insanlar dövlətin dəstəyi ilə halal pul qazanıblar. Minlərlə insan bu 45 gündə 560 manat pul alıb və ailəyə aparıb".***

Bu sahə hələ ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dönəmində gəlirli sahələrdən birinə çevrilib. İpəkçiliyin inkişafında Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 1971-ci il 17 mart tarixli "Azərbaycanda ipəkçiliyin gələcək inkişafına dair tədbirlər" haqqında qərarının xüsusi rolu olub.

Həmin qərar əsasında ipəkçiliyin inkişafı ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilib. Ayrı-ayrı rayonlarda ipək kombinatları, baramaaçan və toxuculuq fabrikləri yaradılıb. Həmin dövrün statistikasına görə, baramaçılıqda 150 min nəfər çalışıb. Respublikada 7 barama toxumu zavodu, 2 damazlıq ipəkçilik stansiyası, 30 baramaqurutma məntəqəsi, 80-ə qədər barama tədarükü və ilkin emalı müəssisəsi fəaliyyət göstərib. Hər il orta hesabla 4,3-5 min ton barama istehsal olunub. Bəhs olunan dövrdə Azərbaycan dünyada barama istehsalına görə 8-ci, SSRİ-də Özbəkistandan sonra 2-ci yeri, barama və ipəyin keyfiyyətinə görə isə 1-ci yeri tutub. Muxtar respublikamız da ölkəmizin baramaçılıqla məşğul olan ən güclü bazalarından biri kimi tanınıb.

Qayıdaq bu günə. "Azərbaycan Respublikasında İpəkçiliyin İnkişaf Konsepsiyası" layihəsində kənd təsərrüfatının ənənəvi sahələrindən olan ipəkçiliyin inkişafı prioritet vəzifə olaraq müəyyən edilib. Konsepsiyada Naxçıvan Muxtar Respublikasında ipəkçilik məhsullarının istehsalının və emalının inkişafının dəstəklənməsinin davam etdirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, muxtar respublikamızın baramaçılığın inkişafındakı mühüm rolu "Naxçıvan tarixi"nin ikinci cildində öz əksini tapıb: "İpəkçilik... Naxçıvanın kənd təsərrüfatında vacib sahələrdən biri idi. Bölgədə ipəkçiliyin əsas mərkəzi Ordubad sayılırdı... Ordubad əyaləti İrəvan quberniyasında birinci yerdə dururdu. XIX əsrin 70-90-cı illərində bu əyalətin 46 kəndində ipəkçiliklə məşğul olurdular ki, bunların da arasında Ordubad şəhəri, Aşağı və Yuxarı Əylis, Aza, Çənnəb, Vənənd, Əndəmic, Dırnıs, Gənzə, Dəstə, Biləv kəndləri daha çox fərqlənirdi. Göstərilən 46 kəndin 41-də isə bilavasitə barama istehsalı ilə məşğul olurdular. İpəkçiliyin inkişaf etdirilməsində, əsasən, üç təsərrüfat sahəsi – tut plantasiyaları, barama istehsalı və ipəkəyirmə bir-birilə vəhdət təşkil edirdi. 1850-ci ildə Ordubad dairəsinin Aşağı Əylis, Dəstə, Biləv, Çənnəb və Ordubad ərazilərində 70 pud 20 girvənkə xam ipək hazırlanmışdı. 1862-ci ilin məlumatına görə, bu ərazilərdən 20 min puda qədər barama hasil edilmişdi... 1885-ci ildə Tiflisdə general-adyutant A.M.Dondukov – Korsakovun iştirakı ilə keçirilən ipəkçilik sərgisində 10 yaxşı ipək məhsulu nümayiş etdirilmiş, ən layiqliləri, o cümlədən Ordubad ipəkçiləri də mükafatlandırılmışdı. 1870-ci ildə Ordubadda 931 pud barama istehsal olunmuşdusa, bu rəqəm 1900-cü ildə 5 min 400 puda çatdırılmışdı. Barama istehsalı başlıca olaraq müxtəlif iri sahibkarların (Məşədi Nəsir, Kazım bəy Əsgərxanov, Kərbəlayi Bağır və sair) əlində cəmləşdiyi üçün onlar kənd burjuaziyası kimi formalaşaraq nəinki mərkəzi Rusiyanın iri toxuculuq sənaye müəssisələri ilə, habelə İtaliya, Fransa, Avstriya-Macarıstan kimi Avropa dövlətləri, eləcə də Yaponiya, Rəşt, Xorasan kimi ipəkçilik sahəsində şöhrət tapmış iri dövlət və şəhərlərlə geniş ticarət əlaqələri yaratmışdılar ".



Tarix üzrə fəlsəfə doktoru Sara Hacıyeva yazır: "İpəkçilik ordubadlıların əsas məşğuliyyət sahələrindən biri olmaqla yanaşı, həm də həyat və güzəranı üçün gəlirli sahəyə çevrilmişdi. Ordubadda qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Vaxtilə Naxçıvana səyahət etmiş səyyahların yazılarından məlum olur ki, o dövrdə yerli əhali həm daxili, həm də xarici bazarlar üçün yüksəkkeyfiyyətli ipəkdən müxtəlif parçalar, xalça, cecim və sair sənət nümunələri toxuyurdular. İpək və atlaz parçalardan tikilmiş paltarlar, geyimlər Naxçıvan əhalisi üçün xarakterik idi. İpəkdən hazırlanmış qadın baş örtükləri içərisində kəlağayı, müxtəlif örpəklər, örtüklər xüsusilə geniş yayılmışdı".

* * *

1865-ci ildə Ordubad şəhərində baramaaçan (ipək) fabriki fəaliyyətə başlayır. Bu gün də Ordubadda hamının hörmətlə Ərbab kimi xatırladığı Rzaqulu Rzayev həmin fabriki yaradır və ilk direktoru olur. O, zavodu yaradarkən buraya 96 çeşməli 24 ədəd dəzgah gətirtdirir. Buraya çoxlu iş qüvvəsi cəlb edir. Qədim baramaçılıq ənənələri yenidən yaşadılmağa başlayır. Bu prosesdə digər təbii amillərlə yanaşı, tarixən qazanılmış təcrübə də mühüm rol oynayır.

1935-ci ildə baramaaçan fabriki yenidən qurulur. Fabrikə o dövr üçün müasir sayılan 42 ədəd mexaniki dəzgah gətirilir. 1969-cu ildə ulu öndər Heydər Əliyevin ölkəmizdə hakimiyyətə gəlişindən sonra fabrik tamamilə yenidən qurulur. Belə ki, fabrik üçün yeni bina inşa edilir. Burada 24 ədəd avtomat baramaaçan dəzgah qurulur. Bir faktı da qeyd edək ki, 1970-ci ildə fabrikdə 860 nəfər işçi çalışıb. Bir il sonra fabrikdə toxucu sexi təşkil olunub. Burada 42 ədəd STB2-216 markalı toxucu, 39 ədəd açma və burucu dəzgah quraşdırılıb. 1985-ci ilədək fəaliyyət göstərən fabrikdə istehsal ilbəil artıb. 1980-ci ildə fabrikdə məhsul istehsalı 103 ton 823 kiloqrama, 1985-ci ildə məhsul istehsalı 115 ton 307 kiloqrama çatdırılıb.

Özüm də yaxşı xatırlayıram ki, o illərdə rayonun Aza, Dəstə, Vənənd, Düylün, Sabirkənd və digər yaşayış məntəqələrindən hər gün fabrikin ayırdığı avtobuslarla fəhlələr işə aparılıb-gətirilir, onlar birdəfəlik yeməklə təmin olunurdular. Kənd yerlərində yüz hektarlarla tutluq sahələri əkilmişdi. Bu sahələrdəki tut ağaclarından baramaçılığın, tutluqların otundan heyvandarlığın inkişafı üçün istifadə edilirdi. Baramaçılıqla məşğul olanlar yaxşı əməkhaqqı alırdılar. Baramaçılığın inkişafı həm kəndlərdə, həm də Ordubad şəhərində yaşayan adamların məşğulluğunun təmin edilməsində, onların ailə büdcəsinin formalaşdırılmasında böyük rol oynayıb. Onu da qeyd edim ki, Ordubad baramaaçan fabrikinə təkcə bu bölgədən, muxtar respublikanın digər rayonlarından deyil, ölkəmizin başqa bölgələrindən də barama gətirilir, ipək istehsal edilirdi.

Bir qədər də barama toxumu haqqında. Bununla bağlı uzun illər Ordubad barama toxumu zavodunun direktoru işləmiş Tofiq Qənbərovla həmsöhbət olduq. O bildirdi ki, Ordubadda əvvəllər barama toxumu evlərdə qadınlar tərəfindən primitiv qaydada yetişdirilirdi. Onlar yetişdirdikləri toxumdan özləri istifadə edirdilər. İqtisadi cəhətdən xeyirli olduğu üçün baramaçılığa maraq getdikcə artırdı. Təbii ki, bu da çoxlu toxum tələb edirdi. XX əsrin 20-ci illərinin sonlarında, təxminən, 1926-1927-ci illərdə Ordubad şəhərində kiçik bir otaqda barama toxumu istehsalına başlanılıb. 1932-ci ildə barama toxumu zavodu inşa olunub (həmin bina indi də Ordubad şəhərində durur).

* * *

Rayonda barama istehsalının həcmini artırmaq üçün müxtəlif tədbirlər həyata keçirilirdi. Bu tədbirlərdən biri də baramaçıların işini yüngülləşdirmək üçün böyük və bu sahə ilə daha çox məşğul olan kəndlərdə kümxana binalarının tikilməsi idi. Çünki 100-150 kiloqram barama yetişdirmək üçün bir neçə böyük otaq lazım idi. O illərdə hamının belə imkanları yox idi. Ona görə də kümxana tikilməsi zərurəti yaranmışdı. Hazırda rayonun Aza, Sabirkənd, Düylün yaşayış məntəqələrində həmin binalar qorunub saxlanılır. Bu binalarda 10-15 baramaçıya barama becərmək imkanı yaradılmışdı. Baramaçılar yüksək məhsuldarlığa nail olurdular. Onlar arasında müxtəlif dövlət mükafatlarına layiq görülən baramaçıları indi də yaxşı xatırlayıram. Mərhum Mənsurə Qurbanova, Tərlan Qurbanova, həmçinin Mehrəngiz Kazımova, Elmira Babayeva, Zivər Kazımova və başqaları təkcə Ordubadda deyil, ölkə səviyyəsində tanınmış baramaçılar idilər. Müxtəlif dövlət tədbirlərində adları çəkilirdi, onların zəhməti yüksək dəyərləndirilirdi. Bu yazını hazırlayarkən vaxtilə baramaçılıqla məşğul olan bir neçə insanla görüşdüm. Elmira Babayeva dedi ki, baramaçılıq ən gəlirli təsərrüfat sahəsidir. Bir üstünlüyü də ondadır ki, barama ən geci 35-40 günə hasilə gəlir. Bu da ilin digər vaxtlarında başqa təsərrüfat sahələri ilə məşğul olmağa imkan verir. Bu gün muxtar respublikamızda baramaçılıqla məşğul olmaq üçün hərtərəfli imkanlar var. Necə illərdir ki, keçirilən iməciliklər dövründə əkinəyararsız torpaqlarda, pay torpaqlarının mərzlərində, yol kənarlarında əkilən tut ağacları baramaçılıq üçün xammaldır. Yaxşı haldır ki, muxtar respublikamızda əkilən tut sortları içərisində xanlar tut, firudin tut, əmin tut, sıxgöz tut, zərif tut üstünlük təşkil edir. Elə sovet dönəmindən qalma tutluq sahələri də az deyil. Belə sahələrə Ordubad, Babək, Şərur rayonlarının ərazilərində rast gəlmək mümkündür. Həmin sahələr pay torpaqları kimi əhaliyə verilsə də, insanlar bir vaxtlar onlara xeyli gəlir gətirən tut ağaclarına dəyməyiblər. Bu ünvanlardakı tut ağacları da yuxarıda dediyimiz qiymətli sortlardandır. Bu isə baramaçılıqda yüksək məhsuldarlığa nail olmaq üçün başlıca amillərdən biridir.

...Hər sahədə olduğu kimi, aqrar bölmədə də uğurla həyata keçirilən islahatlar muxtar respublikada sürətli sosial-iqtisadi yüksəlişdən xəbər verir. Ötən illərin burulğanında, bir növ, dağılıb gedən, unudulan, yaddan çıxan ənənəvi təsərrüfat sahələri tədricən bərpa olunur. Belə sahələrdən biri də ipəkçiliyin əsası sayılan baramaçılıqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da baramaçılığın inkişaf etdirilməsi nəzərdə tutulub və bu da hər birimizdə ümid yaradır ki, muxtar respublikada tezliklə baramaçılığın əvvəlki şöhrəti özünə qaytarılacaq...

**Muxtar MƏMMƏDOV**

## Heydər Əliyev adına Hərbi Liseydə müstəqil Azərbaycanın qoruyucuları, vətənpərvər gənclər yetişir



***"Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin. Olmalıdır ki, dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun".***

Bu fikirlər tarixboyu müxtəlif maraqlar üzündən torpaqlarına göz dikilən, bəzi dövrlərdə ədalətsiz qərar və müharibələrin hədəfinə çevrilən, buna görə də torpaqlarının bir qismi yadelli hücumlar nəticəsində işğal olunan Azərbaycanın yetirdiyi ən böyük şəxsiyyətə – ümummilli lider Heydər Əliyevə məxsusdur. Bütün ömrünü Azərbaycanın müstəqil dövlət kimi mövcudluğuna, xalqının xoşbəxtliyinə həsr etmiş ulu öndərin misilsiz xidmətləri sırasında ordu quruculuğu öncül, eyni zamanda xüsusi yer tutur. Müasir dövrdə Azərbaycanda istənilən sahəni təhlil etsək, həmin sahənin inkişafının təməlində məhz dahi şəxsiyyətin rolunu görməmək mümkün deyil. Ordu quruculuğu sahəsində də qazandıqlarımıza görə yalnız Ona borcluyuq.

Ötən əsrin sonlarında ölkədə yaranmış xaosdan istifadə edənlər torpaqlarımızın bir hissəsini işğal etdilər və işğal indi də davam edir, ancaq bu fakt ordumuzun gücünü, onun döyüş potensialını arxa plana keçirmir. Əksinə, Silahlı Qüvvələrimizin döyüş hazırlığı indi hər kəs, elə işğalçı qüvvələr tərəfindən də etiraf edilir. Təbii ki, müstəqil Azərbaycanın qoruyucusu olan Silahlı Qüvvələrimiz bu gücü asanlıqla qazanmayıb, bunun üçün onilliklər sərf olunub. Azərbaycanda ordu quruculuğu prosesinə hələ Sovetlər Birliyi dövründə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən başlanılıb və böyük çətinliklər həsabına 1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılıb. 1972-ci ildən başlayaraq yüzlərlə azərbaycanlı gəncin Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə təhsil almağa göndərilməsi bu prosesi daha da gücləndirib. Məhz həmin dövrdə yetişdirilən milli hərbçi kadrlar ölkəmiz müstəqillik qazandıqdan sonra ordu quruculuğunda mühüm rol oynayıblar.

Hamımıza məlumdur ki, ordu quruculuğunda ən mühüm vəzifələrdən biri ixtisaslı hərbçi kadrların yetişdirilməsidir. Bu baxımdan Naxçıvanda hərbi təmayüllü məktəbin yaradılması böyük uzaqgörənliyin nəticəsidir. Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılıb. 1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən ümummilli liderimiz bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq deyib: ***"Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər süləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi".*** Həmin dövrdə 56 kursantla fəaliyyətə başlayan filial ötən dövr ərzində böyük inkişaf yolu keçib, Naxçıvanda gənclərin hərb sənətinə marağının artmasına səbəb olub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. Bu təhsil ocağında ötən dövrdə geniş





quruculuq işləri aparılıb, burada ikimərtəbəli qərargah binası, müasir tədris korpusu və yataqxana binası istifadəyə verilib, liseyin maddi-texniki bazası xeyli gücləndirilib.

Azərbaycanın müstəqilliyinin keşiyində duracaq kursantlarla görüşə gedərkən ulu öndərin adını daşıyan bu məktəblə bir daha yaxından tanış olmaq imkanımız oldu. Qeyd edək ki, Heydər Əliyev adına Hərbi Lisey bu gün muxtar respublikada nümunəvi təhsil müəssisələrindəndir. Liseydə kursantların hərbi biliklərə yiyələnməsi üçün hər cür şərait yaradılıb. Buradakı tədris və yataqxana korpusları ən müasir avadanlıqlarla təchiz olunub. Yataqxana binasında müasir məişət şəraiti ilə yanaşı, kursantların asudə vaxtlarının səmərəli təşkili də təmin edilib. Bundan əlavə, liseydə kursantların sağlamlığı və fiziki hazırlığı da diqqət mərkəzində saxlanılır. Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları kursantların istifadəsindədir. Maddi-texniki bazanın təkmilləşdirilməsi ötən müddətdə tədrisin keyfiyyətini yüksəldib. Belə ki, liseydə müasir fənn kabinələri, kompüter və linqafon otaqları, elektron lövhəli siniflər, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla zənginləşdirilmiş kitabxana tədrisin yüksək səviyyədə aparılmasına imkan verir. Bunun nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin uğurları ildən-ilə yüksəlir, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı artır. Təsadüfi deyil ki, hərbi lisey təhsil sahəsindəki nailiyyətlərinə görə 2008-2009-cu tədris ilində ölkəmizdə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. Məktəbdə olarkən öyrəndik ki, bu il hərbi liseyin məzunlarından 199 nəfər müxtəlif ali hərbi məktəblərə qəbul olunub, o cümlədən 8 nəfər ali hərbi təhsil almaq üçün Rusiya Federasiyasına göndərilib. 2016-2017-ci tədris ilində də hərbi liseyə qəbul üçün 987 nəfər sənəd verib ki, onlardan 671 nəfəri imtahana buraxılıb, 152 nəfər isə kursant adını qazanıb. Diqqətçəkən məqamlardan biri də odur ki, son illərdə Heydər Əliyev adına Hərbi Liseyə müraciət edənlər içərisində ölkəmizin digər bölgələrindən olanların sayı artır. Öyrəndik ki, 2014-cü ildə liseydə təhsil alan belə kursantların sayı 14 nəfər təşkil edirdisə, 2015-ci ildə 34, 2016-cı ildə isə 61 nəfər olub. Liseydə olarkən burada təhsil alan kursantlarla da görüşüb söhbət etdik. Masallı rayonundakı Təzəkənddən olan Əli Əliyev liseyə yeni qəbul olan kursantlardandır. Deyir ki, zabit olmaq onun böyük arzusu olub. Bura qəbul olunanadək Heydər Əliyev adına Hərbi Lisey haqqında məlumatlı olub. Vaxtilə buranı bitirmiş və hazırda ali hərbi məktəblərdə təhsil alan yaxınlarının məsləhəti onu burada təhsil almağa istiqamətləndirib. Burada kursantlar üçün yaradılmış şəraitdən, tədrisin keyfiyyətindən, müəllim və zabitlərin onlara qayğısından çox razıdır.

Qazax rayonundan Ayaz Osmanov da kursant yoldaşının fikirləri ilə razıdır:

– Ulu öndərimizin adını daşıyan liseydə təhsil almaq mənim üçün qürurvericidir. Bu hərbi lisey haqqında çox eşitmişdik. İndi isə eşitdiklərimizi özümüz görürük. Liseydə bizim üçün çox gözəl şərait yaradılıb. Müəllimlərimiz və komandirlərimiz bizə böyük qayğı göstəririlər. Çalışırıq ki, bu məsuliyyətli və şərəfli peşənin bütün incəliklərini dərindən öyrənək. Buna görə də daha çox oxumalı, daha çox öyrənməliyik.

Hərbi liseyin II kursunda oxuyan Novruz Qasımov, III kursun kursantı Eldəniz Nağıyev və digərləri də bizimlə söhbətlərində ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan bu təhsil ocağında oxuduqları ilə fəxr etdiklərini, müstəqil Azərbaycanın qoruyucusu kimi yetişdikləri üçün qürur hissi keçirdiklərini söylədilər.

*Bəli, Heydər Əliyev adına Hərbi Lisey artıq 12 ildir ki, nümunəvi təhsil müəssisəsi kimi Milli Ordumuzun savadlı, bacarıqlı, vətənpərvər zabitlərlə təmin olunması yolunda uğurla fəaliyyət göstərir. Liseyin məzunları Silahlı Qüvvələrimizin müxtəlif hərbi birləşmələrində layiqincə xidmət edir, müstəqilliyi bu Vətənə yenidən qazandırmış ümummilli liderimiz Heydər Əliyevin adını daim uca tutmağa çalışırlar.*

**Səbuhi HƏSƏNOV**

---

*5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür*

## Muxtar respublikada müəllimlər hərtərəfli qayğı əhatəsindədir

***YUNESKO-nun qərarına əsasən 1966-cı ildən etibarən hər il oktyabrın 5-i Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur.***

Təhsilin inkişafı hər bir dövlətin ali məqsədlərindəndir. Bu məqsədin həyata keçirilməsi ölkədə yüksək savadlı və peşəkar müəllimlər ordusunun mövcudluğundan asılıdır. Müdriklərin fikrinə görə, hər bir millətin mədəni tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır. Tutduğu vəzifədən asılı olmayaraq, hər bir insan cəmiyyətdəki mövqeyinə, şəxsiyyət kimi formalaşmasına və qazandığı biliklərə görə özünü, ilk növbədə, məhz müəllimlərinə borclu sayır.

Azərbaycan xalqının milli təfəkküründə müəllim adı həmişə uca tutulmuş və bu peşə sahiblərinə böyük ehtiram göstərilmişdir. Azərbaycan müəllimləri də hər zaman ölkəmizin inkişafı və intibahı naminə fəaliyyət göstərmiş, şərəfli müəllim peşəsinə sadiq qalaraq xalqımızın maariflənməsi və tərəqqisi yolunda yorulmadan çalışmışlar.

Ümummilli liderimiz Heydər Əliyev elmin, təhsilin inkişafını, geniş dünyagörüşə malik, savadlı və intellektual gənc nəslin yetişdirilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Bu yolda təhsilin aparıcı qüvvəsi olan müəllimlərin fəaliyyətinə daim yüksək qiymət verən ulu öndər istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində savadlı və vətənpərvər müəllimlər ordusunun yaradılması qayğısına qalmış, müəllimlərin əməkhaqları artırılmış, sosial-məişət şəraitləri yaxşılaşdırılmış, onlar ölkəmizin ziyalı təbəqəsinin aparıcı qüvvəsinə çevrilmişdir.

Ümummilli liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafını dövlətin qarşısında duran ümdə vəzifə kimi qəbul edərək müəllimlərə qayğıkeş münasibət göstərir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikasında öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşdırılmışdır. Cəmiyyətin maariflənməsi, bilikli, vətənpərvər, çalışqan və sağlam gəncliyin yetişdirilməsi yolunda yorulmadan çalışan muxtar respublika müəllimlərinin əməyi layiqincə qiymətləndirilir, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının



artırılması haqqında" Sərəncamı bu istiqamətdə atılan növbəti mühüm addımdır. Bu sərəncam muxtar respublika müəllimlərinin böyük sevincinə səbəb olmuş, onların işə məsuliyyətini daha da artırmışdır.

Müasir tədris şəraiti olan təhsil ocaqlarında dərs keçmək bu gün hər bir müəllimin arzusu, eyni zamanda onun əməyinə verilən qiymətin parlaq ifadəsidir. Naxçıvan Muxtar Respublikasında təhsilə, təhsil işçilərinə göstərilən yüksək diqqət və qayğı sayəsində son illər 200-dən artıq təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş, məktəblərdə müasir tədris şəraiti yaradılmışdır.

Muxtar respublikada istifadəyə verilən məktəb binalarının müasir maddi-texniki baza ilə təmin olunması da təhsil sahəsinə göstərilən dövlət qayğısının mühüm tərkib hissəsidir. Bu günədək ümumtəhsil məktəblərində 623 elektron lövhə və 3725 dəst kompüter quraşdırılmışdır. Müəllim və şagirdlərin istifadəsinə verilən kompüterlər internet şəbəkəsinə qoşulmuşdur. Yaradılan müasir şərait pedaqoji kollektivlərin işini xeyli asanlaşdırmaqla yanaşı, yeni təlim metodlarından istifadəyə də geniş imkanlar açmışdır.

Muxtar respublikada təhsilin inkişafına hesablanmış tədbirlər sırasında təhsil yarmarkalarının təşkilinin mühüm rolu vardır. 2005-ci ildən etibarən muxtar respublikada hər il ənənəvi olaraq keçirilən təhsil yarmarkaları gənc müəllimlərin məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu tədbirlərin nəticəsidir ki, ötən dövrdə təhsil yarmarkalarında iştirak edən yüzlərlə gənc müəllim muxtar respublikanın ümumtəhsil məktəblərində işlə təmin olunmuşdur. Bu il sentyabrın 6-da keçirilən növbəti təhsil yarmarkasında 341 nəfər gənc müəllim təyinatı üzrə məktəblərə göndəriş almış və peşə fəaliyyətlərinə başlamışlar.

Hər bir müəllim üçün ən gözəl hədiyyə onun yetişdirdiyi gəncin etimadı doğrultması, başını uca edərək layiqli vətəndaş kimi böyüməsidir. Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır.

Muxtar respublikamızda müəllim əməyi daim yüksək qiymətləndirilmiş, ötən dövrdə 67 müəllim "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 90 müəllim "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 56 müəllim "Tərəqqi" medalı ilə təltif edilmişdir.

*Cəmiyyət üçün faydalı fərdlər hazırlamağı özünün həyat amalı kimi qəbul edən muxtar respublika müəllimləri bundan sonra da təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Yaddaşlarda yaşayanlar*

## Vətənimizin tarixini, təbii gözəlliklərini vəsf edən ədib – *Müzəffər Nəsirli*



***Sovet dövrü Naxçıvan ədəbi mühitinin istedadlı və məhsuldar simalarından sayılan Müzəffər Nəsirli çoxşaxəli yaradıcılıq fəaliyyəti ilə tanınmışdır. O, daha çox şair kimi sənət axtarışları aparıb ideya-bədii mükəmməlliyə malik dolğun əsərlər yazmaqla yanaşı, dramaturgiya, publisistika, ədəbi tənqid sahəsində də müvafiq xidmətlər göstərmişdir.***

Müzəffər Qasım oğlu Nəsirli 1911-ci ilin sentyabrında Şahbuz rayonunun Sələsüz kəndində dünyaya göz açmış, Naxçıvan şəhərində ilk təhsil almış, sonra pedaqoji texnikumu bitirərək əmək fəaliyyətinə başlamış, həmçinin Bakıda pedaqoji institutun ədəbiyyat fakültəsində qiyabi yolla təhsilini davam etdirmişdir.

İkinci Dünya müharibəsinin iştirakçısı olan M.Nəsirli ordudan tərxis edildikdən sonra da uzun illər pedaqoji sahədə işləmiş, müəllimlik etmişdir. Onun fəaliyyətinin mühüm bir mərhələsi də Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan bölməsinə rəhbərlik etdiyi illərdir. Müzəffər Nəsirli səmərəli fəaliyyətinə görə müxtəlif fəxri fərmanlarla və bir sıra medallarla təltif olunmuşdur. Tanınmış ədib 1980-ci ildə dünyasını dəyişmişdir.

Yeniyetməlik vaxtlarından bədii yaradıcılığa başlayıb müxtəlif qəzet və jurnallarda "Sələsüzlü", "Müzəffər Asim" imzaları ilə şeirlər dərc etdirən müəllif az sonra Müzəffər Nəsirli imzasıyla tanınmışdır. O, qələmə aldığı bir çox əsərlə oxucuların rəğbətini qazanmışdır. "Həyat haqqında mahnı", "İşıq", "And", "Qafqaz yollarında", "Mənim respublikam", "Araz sahilində", "Laləli dağlar", "Yanar üfüqlər", "İki ürək", "Qaynar bulaq" kimi kitablarında toplanmış əsərləri sənətkarın ilham və istedadının geniş üfüqlərindən soraq verir.

Müzəffər Nəsirlinin qələmindən bir çox dəyərli şeirlər çıxmışdır. Onun müxtəlif vaxtlarda yazdığı "Mənim muxtar respublikam", "Gözəldir", "Qış səhəri", "Vətən torpağı", "Sularda qoşa şəkil", "Məhəbbət", "Çağır məni", "Atalar və oğullar", "Berlindən dönərkən", "Göyərçin", "Əgər" və sair nümunələr özünün ideya-bədii mükəmməlliyi ilə səciyyələnir. Ümumiyyətlə, şairin şeirləri mövzuca rəngarəngdir. O, məhəbbət mövzusunda yüksək emosionallığa malik təsirli şeirlər yazdığı kimi, Vətənimizin təbii gözəlliklərini vəsf edən dolğun bədii nümunələr də yaratmışdır. Doğma Naxçıvanımızın dünəni və bu günü barədə poetik düşüncələr də onun söz dünyasında özünəməxsus yer tutur. "Mənim Naxçıvanım" şeirində əsas yeri tutan doğma yurdun tərənnümü, onunla qürur duymaq ovqatı digər belə nümunələr üçün də xarakterikdir:

*Olubdur qoca Şərqin*
*Əzəl gündən zinəti,*
*Mömünənin türbəsi,*
*Əcəminin sənəti.*
*Zər cildli kitabsan,*
*Qoynun sirlə doludur.*
*Sənin şanlı tarixin*
*Zəfərlərlə doludur!*

Tanınmış ədibin yaradıcılığında Naxçıvan mövzusunu müxtəlif yönlərdən əks etdirən şeirlər çoxdur. Onun "Bahar nəfəsli diyar" şeirinə akademik Bəkir Nəbiyevin verdiyi qiymət ədibin bu mövzulu əsərlərinin əsas məziyyətlərini özündə əks etdirir: "Müzəffər Nəsirli Naxçıvana həsr olunmuş "Bahar nəfəsli diyar" şeirində doğma yurdun tarixinə, təbiətinə, ədəbi-mədəni ənənələrinə dair qiymətli faktları mənalandırmışdır. Bu müxtəsər şeirdə memar Əcəmi, şairə Heyran xanım, görkəmli ədiblər Mirzə Cəlil, Hüseyn Cavid, Əlincə qalası, Şərur düzü muxtar respublikanın bugünkü büsatı ilə üzvi əlaqədə tərənnüm edilmiş, bu torpağın, doğrudan da, "nəqşi-cahan" olduğu poetik cəhətdən əsaslandırılmışdır".

Müzəffər Nəsirli uşaqlar üçün onların yaş və qavrama səviyyəsinə uyğunluğu, axıcılığı, ahəngdarlığı ilə diqqəti çəkən bir sıra maraqlı şeirlər də yazmışdır.

Şairin şeirlərinin çoxunda müşahidə olunan məzmun və forma vəhdəti, mövzuya uyğun bədii vasitələrin seçilməsi, duyum və deyim tərzinin özünəməxsusluğu da müsbət məziyyət kimi təqdirəlayiqdir. Çoxəsrlik şifahi və yazılı ədəbiyyatımızın zəngin yaradıcılıq ənənələrindən ardıcıl surətdə öyrənən və bu təməl üzərində dəyərli əsərlər yazan Müzəffər Nəsirli dünya söz sənətinin ədəbi təcrübəsinə də yeri gələndə üz tutmuşdur. Onun Avropa mənşəli sonet janrında bir sıra diqqətəlayiq nümunələr yazması bu baxımdan səciyyəvidir. Yüksək mənəvi dəyərlərin, nəcib hisslərin, ülvi duyğuların poetik tərzdə tərənnümü bu sonetlərdə əsas yeri tutur. Şair sonetlərinin birində düşüncələrini belə ümumiləşdirmişdir:

*Çalış, ürəyinə düşməsin ləkə,*
*Gərək ol vətənə, gərək ol elə,*
*Həyat yollarında möhkəm addım at.*
*Nəciblik, təmizlik gözəl xislətdir,*
*O, nə zər-zibadır, nə də şöhrətdir,*
*Düşün bu hikməti, yaşayıb-yarat!*

Müzəffər Nəsirli bir sıra poemalar da yazmışdır. Onun bu janrda qələmə aldığı əsərlərin çoxunun müharibə mövzusunda olması təsadüfi deyil. O, iştirakçısı olduğu hərb illərinin yaddaşda yaşayan müşahidə və xatirələrini bədii sənət dili ilə canlandırmışdır. Şairin "Qafqaz oğulları" poemasında Azərbaycan və gürcü xalqları arasındakı tarixi dostluğun 1941-1945-ci illər müharibəsinin odlu-alovlu sınaqlarından keçməsi poetik tərzdə təcəssüm etdirilmişdir. Müəllif azərbaycanlı Kamillə gürcü Dadiqonun döyüş meydanlarında həyatlarının son anlarınadək bir-birinə sədaqətini təsirli detallarla ifadə edə bilmişdir. "Əkbər haqqında ballada" poeması isə cəsur döyüşçü, həmyerlimiz Əkbər Ağayevin rəşadətli döyüş yoluna həsr edilmişdir. Müəllifin "Sapundağ haqqında ballada" poeması bədii təsvirlərin dəqiqliyi, konkretliyi ilə daha çox maraq doğurur. Belə ki, Krımda 1944-cü ildə iştirak etdiyi müxtəlif döyüşlərin hər birinin təsvirindən əvvəl müəllif onların baş verdiyi günləri də göstərmiş, sonra əsas mətləbə keçmişdir. Bədiiliklə sənədliliyin üzvi vəhdəti bu poemada ön planda dayanır. Şairin "Atam haqqında ballada" poeması özünün psixoloji dərinliyi və sosial məndəricəsi ilə səciyyələnir. Burada hərb meydanlarında ağır yaralanan, şikəst olan bir döyüşçünün müharibədən sonra əlillər evində saxlanması, evinə qayıtmaq istəməməsi, dərin sarsıntılar keçirməsi təsirli şəkildə təcəssüm etdirilmişdir. Bu lirik-epik poemada müəllif insana qayğını, övlad məhəbbətinin gücünü, Azərbaycan qadınlarının vəfasını ön plana çəkmişdir. "Partizan Əfruz" poeması da maraqlı bədii nümunədir. Şairin "Bacılar", "Arpaçay dastanı" kimi poemaları özünün müasirlik ovqatı, sosial-mənəvi tematikanın poetik təcəssümü, qurub-yaradan əmək adamlarının tərənnümü baxımından diqqəti çəkir.

Müzəffər Nəsirli dramaturgiya sahəsində də yaradıcılıq axtarışları aparmış, bir sıra maraqlı pyeslər yazmışdır. Müxtəlif vaxtlarda qələmə aldığı "Azadlıq günəşi", "Qanlı qanunlar", "İntiqam", "Dürdanə" pyesləri bu qəbildəndir. Onun XIX əsrdə yaşayıb-yaratmış həmyerlimiz şairə Qönçəbəyimin ömür yoluna, nisgilli taleyinə həsr etdiyi pyes daha çox diqqəti çəkir.

Müzəffər Nəsirli dövri mətbuatda bir çox ədəbi-tənqidi məqalələr də dərc etdirmişdir. O, Azərbaycan və dünya ədəbiyyatının M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, E.Sultanov, L.N.Tolstoy, V.V.Mayakovski, P.Tıçina, O.Balzak, H.İbsen, H.Heyne kimi məşhur klassikləri haqqında elmi-kütləvi məqalələr yazmış, eyni zamanda öz müasiri olan bəzi ədiblərin (M.Müşfiq, S.Rüstəm, M.İbrahimov və sair) yaradıcılığına aid resenziyalarla mətbuatda çıxış etmişdir. M.Nəsirlinin xüsusən Naxçıvan ədəbi mühitinə aid elmi-ədəbi dəyərləndirmələri böyük maraq doğurur. O, sovet dövrü Naxçıvan ədəbi mühitinin inkişaf xüsusiyyətləri, ayrı-ayrı tanınmış simalarının yaradıcılıq axtarışları haqqında diqqətəlayiq məqalələr yazaraq müxtəlif mətbuat orqanlarında dərc etdirmişdir. M.Nəsirlinin arxivində saxlanılan "Sovet hakimiyyəti illərində Naxçıvanda ədəbi həyat" adlı irihəcmli əsəri, əslində, sistemli bir tədqiqat da sayıla bilər. 1973-1974-cü illərdə yazılmış, 150 makina səhifəsindən artıq həcmə malik bu əsərdə muxtar respublikada ədəbi mühitin yarıməsrlik inkişaf yolu barədə maraqlı faktlar, informasiyalar və təhlillər vardır. Bütün bu deyilənlərə M.Nəsirlinin müxtəlif mətbuat orqanlarında dərc olunmuş publisistik məqalələrini də əlavə etmək olar.

*Ümumiyyətlə, çoxşaxəli və məhsuldar yaradıcılığa malik Müzəffər Nəsirli Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələrindən biridir.*

**Hüseyn HƏŞİMLİ**
**filologiya üzrə elmlər doktoru,**
**Əməkdar elm xadimi**



## Payızın balladası

***Bəlkə də, dünyanın ən gözəl xoşbəxtliyidir torpaqla qucaqlaşan yağış damlalarının nəğməsini dinləmək. Tanrının Nəqşi-cahan adlı rəsm əsərinə payız adlı qızılı fırçası ilə həkk etdiyi nəqşlərin sehrində özünü unutmaq. Bir başqadır bu yerlərin payızı.***

Bir azdan bütün qızmar yay boyunca bircə an belə olsun dincini almayıb çölün-düzün ortasında ətrafa kölgə salan narbənd ağacları payızın yağışında yuyunub yazadək yuxuya dalacaq. Ağrıdağdan enən küləklərin səsi Şərur düzündəki narbənd ağaclarına şirin bir layla olacaq. Sis, duman Batabatdan enərək torpağı salamlayacaq. Fəsillərin nazlı qızı payız Payız meşəsində qızıl donunu əyninə geyəcək.

Bəli, Nəqşi-Azərbaycana, Nəqşi-cahana, dünyanın bəzəyinə çevrilmiş Naxçıvana fəsillərin nazlı qızı obrazında gələcək payız. Öncə Əcəmi seyrəngahına gedərək öpəcək böyük ana Möminə xatının əlini. Qızıl ipəklərlə ilmələnmiş don verəcək 40 incəbelli qıza – Möminə xatın ətrafındakı ağaclara. Tanrıdan yenə daşqın olacağını soruşmaq üçün müdrik baxışlarla Araza boylanan Nuhun məqbərəsini də ziyarət edəcək payız.

Və bir rəssam axtarıram ki, yağışlar torpağın yanağından öpəndə, insanlar yağışda islanmaq qorxusu ilə hərəsi bir tərəfə tələsəndə payızın palitrasında rənglərin ahəngini tapmaq arzusu ilə alışıb yana bu yağışın altında. Və bir payız tablosu yaratmaq istərkən özü Tanrının "Qızılı Nəqşi-cahan" adlı tablosuna həkk oluna.

Və bir şair... Qalxıb Naxçıvanqaladan gözünü dikə Araza və yaza ki, Araz bölünmüş bir yurd üçün ağlayan kövrək payızın göz yaşlarıdır. Və bu misraları Haçadağ üzərində çaxan şimşək həkk edə göy üzünə...

Və bir musiqiçi... Qalxıb Gəmiqayaya daşlar üzərində rəqs ifa edən yağış damlalarının səsini Arpaçayın yallı ahəngi ilə sintez edib köçürə nota.

Bir də bir insan. Sadə bir insan. Bu qədər gözəlliyi seyr edərək, sadəcə, bir cümlədə ifadə edə hər şeyi: Naxçıvan, mən sənin payızını sevirəm.

**Elnur KƏLBİZADƏ**

## Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual:*** ***Azərbaycan Respublikası ərazisində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazə hansı hallarda verilir və onu təsdiq edən sənəd nədir?***

***Cavab:*** - Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda;

- ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda;

- Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı və ya Azərbaycan Respublikasının banklarında həmin məbləğdə pul vəsaiti olduqda;

- iqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda;

- Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda;

- xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda;

- Azərbaycan Respublikasında təsis edilmiş və təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxsin rəhbəri və onun müavini vəzifəsini tutduqda;

- Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda;

- Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada iş icazəsi aldıqda;

- Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil aldıqda;

- dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda;

- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda.

Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi verilir. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir.

***Sual:*** ***Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə hansı müddətə verilir?***

***Cavab:*** Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə ərizəçinin müraciətində göstərilən, lakin 3 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 3 ildən çox olmayan müddətə uzadıla bilər.

Digər hallarda Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə ərizəçinin müraciətində göstərilən, lakin 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 738